# Xalq şairi Söhrab Tahiri son mənzilə yola salındı



Mayın 5-də Təzəpir məscidində müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri, xalq şairi Söhrab Tahirilə vida mərasimi keçirilib.

Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sənətkarın tabutu önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulmuşdu.

Cənazənin ətrafına Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi (AYB), müxtəlif idarə və təşkilatların adından əklillər, tər qızılgüllər düzülmüşdü.

Söhrab Tahirinin qələm dostları, poeziya sevərlər, tanınmış elm və mədəniyyət xadimləri Təzəpir məscidinə gələrək görkəmli şairə və gözəl insana son borclarını veriblər.

Sonra görkəmli şair son mənzilə yola salınıb.

Mərhum II Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin!

***AZƏRTAC***